| RAZILAŞDIRILMIŞDIR: | TƏSDİQ EDİLMİŞDİR: |
| --- | --- |
| Azərbaycan Respublikası Mərkəzi Bankın<br>Baş direktoru | “Qala Sığorta” Açıq Səhmdar Cəmiyyəti<br>İdarə Heyətinin sədri |
| ___________________ Z. Z. Əliyev | __________________ F. K. Allahverdiyev |
| « 29 » Noyabr 2022-ci il | « 29 » Noyabr 2022-ci il |

# DƏMİRYOL NƏQLİYYATI VASİTƏLƏRİNİN TAM SIĞORTASI QAYDALARI

**Bakı 2022**

## 1. ÜMUMİ MÜDDƏALAR

Bu Qaydalar Azərbaycan Respublikasının Mülki Məcəlləsinə, «Sığorta fəaliyyəti haqqında» Azərbaycan Respublikası Qanununa və digər qanunvercilik aktlarına uyğun olaraq işlənib hazırlanmışdır.

## 2. ANLAYIŞLAR

Bu qaydalarda və bu qaydalar əsasında bağlanmış sığorta müqavilələrində aşağıdakı əsas anlayışlardan istifadə olunur:

**Sığortalı** - sığorta haqqı ödəyən, sığorta obyektinin sığorta etdirilməsində sığorta marağı olan sığorta müqaviləsinin tərəfi;

**Sığortaçı** - sığorta qanunvericiliyi əsasında sığorta fəaliyyətini həyata keçirmək üçün müvafiq lisenziyaya malik olan, sığorta müqaviləsində nəzərdə tutulan sığorta hadisəsi baş verdiyi halda qanunvericiliklə və ya müqavilə ilə müəyyən olunmuş qaydada sığorta ödənişini vermək öhdəliyi daşıyan sığorta müqaviləsinin tərəfi olan yerli hüquqi şəxs;

**Sığorta olunan** - sığorta müqaviləsi əsasında əmlak mənafeləri sığortalanan şəxs. Əgər sığorta müqaviləsində başqa sığorta olunan göstərilməmişdirsə, sığortalı eyni zamanda sığorta olunan hesab olunur;

**Faydalanan şəxs** - sığorta müqaviləsinə uyğun olaraq sığorta ödənişi verilməli olan şəxsdir. Sığorta müqaviləsində faydalanan şəxs qismində başqa şəxs nəzərdə tutulmamışdırsa, sığortalı və (və ya) sığorta olunan faydalanan şəxs sayılır;

**Sığorta müqaviləsi** - Sığortalının müvafiq sığorta haqqı ödəməsi müqabilində sığorta obyektinin məruz qala biləcəyi risklərlə bağlı razılaşdırılan pul məbləğinin müəyyən bir hadisənin baş verməsi əsasında ödənilməsinin sığortaçı tərəfindən öhdəlik kimi götürülməsi şərtlərinin təsbit edildiyi razılaşmadır;

**Sığorta obyekti** – sığortalının, yaxud sığorta olunanın qanunazidd olmayan hər hansı əmlak mənafeyi;

**Sığorta predmeti** – sığorta müqaviləsi üzrə sığortalanan əmlak mənafelərinin aid olduğu əmlak;

**Sığorta riski və ya risk** – sığorta obyekti ilə bağlı itkilərin və ya zərərlərin yaranmasına səbəb olan hadisənin baş verməsi və ya halın yaranması ehtimalı, həmçinin bu ehtimala qarşı sığortaçının üzərinə götürdüyü öhdəlikdir;

**Sığorta məbləği** - sığortalanmış risklər üzrə sığortaçının öhdəliyinin müqavilə ilə müəyyənləşdirilmiş məbləğlə ifadə olunan son həddidir;

**Qismən sığorta** - əmlakın sığortası üzrə müqavilədə müəyyən edilmiş sığorta məbləği sığorta dəyərindən az olduğu halda (qismən sığorta halında), sığortaçı zərərin əvəzini sığorta məbləğinin sığorta dəyərinə olan nisbətində ödəyir, bir şərtlə ki, qismən sığorta barədə müddəa sığorta müqaviləsində əks edilmiş olsun;

**Sığorta haqqı** - risklərin qəbul edilməsi və ya bölüşdürülməsi müqabilində sığorta müqaviləsi ilə nəzərdə tutulan qaydada sığortalının sığortaçıya ödəməli olduğu pul məbləğidir;

**Sığortanın müddəti** - sığorta risklərinin sığortalandığı müddət. Sığorta müqaviləsində başqa cür hal nəzərdə tutulmamışdırsa sığorta təminatı sığorta müqaviləsində qeyd olunmuş müddəti əhatə edir;

**Sığorta ödənişi** - sığorta hadisəsi baş verdikdə, qanunvericiliyə, həmçinin sığorta müqaviləsinə uyğun olaraq sığortaçı tərəfindən ödənilən maliyyə kompensasiyasıdır;

**Azadolma məbləği** - sığorta hadisəsi nəticəsində yaranan itkilərin və ya dəyən zərərin sığorta təminatı ilə əhatə olunmayan və sığortalının uzərində qalan hissəsidir;

**Sığorta ərazisi** – sığorta obyektinin sığortalanmış hesab olunduğu müəyyən ərazi hüdudları;

**Sığorta hadisəsi** – qanunvericiliyə və ya sığorta müqaviləsinə görə sığorta ödənişinin sığortalıya, sığorta olunana və ya digər faydalanan şəxslərə ödənilməsi üçün əsas olan, sığorta müqaviləsinin qüvvədə olduğu

müddət ərzində baş verən hadisə və ya yaranan hal;

**Tam məhvolma** – əmlakın bərpa oluna bilməyəcək şəkildə faktiki məhv olması.

## 3. SIĞORTA SİNFİ

3.1. Bu qaydalar dəmiryol nəqliyyatı vasitələrinin sığortası növü üzrə aşağıdakı sığorta siniflərini əhatə edir:
3.1.1. dəmiryol nəqliyyatı vasitələrinin sığortası;
3.1.2. dəmiryol nəqliyyatı vasitələri sahiblərinin mülki məsuliyyətinin sığortası.

## 4. SIĞORTA PREDMETİ

4.1.Bu qaydaların 3.1.1 bəndi üzrə sığortalanmış dəmiryol nəqliyyatı vasitəsinin və ya onun hissələrinin zədələnməsi, itkisi (məhv olması) və ya məhv olması ilə bağlı risklər sığorta predmeti sayılır.
4.2. Bu qaydaların 3.1.2. bəndi üzrə sığortalanmış dəmiryol nəqliyyatı vasitəsindən istifadə olunarkən üçüncü şəxslərə vurulan zərərin əvəzini ödəmək öhdəliyi ilə əlaqədar onun əmlak mənafeləri ilə bağlı zərərin əvəzinin tam və ya qismən ödənilməsi sığorta predmeti sayılır.
4.3. Bu qaydalara əsasən aşağıdakı dəmiryol nəqliyyatı vasitələri sığortalana bilər:

- vaqon və yarımvaqonlar;
- sisternlər;
- refrijeratorlar;
- dəmiryol nəqliyyatına aid olan başqa dəmiryol nəqliyyatı vasitələri.

4.4. Bu qaydalara əsasən aşağıdakı dartıcı dəmiryol nəqliyyatı vasitələri sığortalana bilər:

- elektrovozlar;
- teplovozlar;
- parovozlar;
- elektrik qatarları;
- dizel qatarları;
- qazotrubovozlar;
- dartıcı dəmiryol vasitələrinə aid olan başqa dəmiryol nəqliyyatı vasitələri (avtonom hərəkət edə bilən vasitələr).

4.5. Dəmir yolların inventar parklarında, dəmiryol nəqliyyatı sənaye müəssisələrində və Azərbaycan Respublikasının dövlət dəmir yolları sisteminə daxil olmayan və təyin olunmuş qaydada xüsusi icazə almış fiziki və hüquqi şəxslərin sahələrində yerləşən, dəmiryol nəqliyyatı vasitələrinin qeydiyyat bazasında rəsmiləşdirilmiş və istismara hazır olan nəqliyyat vasitələri o cümlədən elektrovozlar, teplovozlar, parovozlar, motorvaqon və dizel qatarları sığortalana bilər.
4.6. Bu qaydaların 3.1.2. bəndinə əsasən üçüncü şəxslərə dəymiş aşağıdakı zərərlər ödənilir:
4.6.1. üçüncü şəxslərin həyat və sağlamlığına dəymiş zərər;
4.6.2. üçüncü şəxslərin əmlakına dəymiş zərər;

## 5. SIĞORTA RİSKLƏRİ

5.1. Sığortaçı aşağıdakı hallar nəticəsində bu qaydaların 3.1.1 bəndinə münasibətdə dəmiryol nəqliyyatı vasitəsinin məhv olmasına və ya zədələnməsinə təminat verir:
5.1.1. Yanğın və/və ya partlayış;
5.1.2. Üçüncü şəxslərin qeyri qanuni hərəkətləri;
5.1.3. Dəmiryol nəqliyyatı vasitəsinin relsdən çıxması, aşması, hər-hansı başqa nəqliyyat vasitəsi və ya maneə ilə toqquşması, yaxud üzərinə hər-hansı predmetin düşməsi.

5.1.4. Təbii fəlakətlər:
5.1.4.1. su daşqını, yeraltı suların fəaliyyəti;
5.1.4.2. zəlzələ;
5.1.4.3. vulkan püskürməsi;
5.1.4.4. sel, yer sürüşməsi, uçqun;
5.1.4.5. qasırğa, tufan;
5.1.4.6. yerli ərazi üçün qeyri adi olan yağıntı, şaxtalar və ya başqa təbii hadisələr.
5.1.5. Bu qaydaların 6-cı bəndində qeyd olunan hallar istisna olmaqla bütün qəflətən baş vermiş və gözlənilməz səbəblər.

5.2. Sığortaçı təsadüfi və gözlənilməz xarakterə sahib aşağıdakı hallar nəticəsində bu qaydaların 3.1.2 bəndinə münasibətdə dəmiryol nəqliyyatı vasitəsindən istifadə olunarkən üçüncü şəxslərə vurulan zərərin əvəzini ödəmək üzrə təminat verir:
5.2.1. Yanğın və/və ya partlayış;
5.2.2. Üçüncü şəxslərin qanunazidd hərəkətləri (sığortalının təqsiri ucbatından nəqliyyat vasitəsinin üçüncü şəxslərin istifadəsinə keçməsi halları istisna olmaqla);
5.2.2. Dəmiryol nəqliyyatı vasitəsinin relsdən çıxması, aşması, hər-hansı başqa nəqliyyat vasitəsi və ya maneə ilə toqquşması;
5.2.3. Digər fövqəladə, qəfil və gözlənilmədən baş vermiş hadisələr.

## 6. SIĞORTA RİSKLƏRİNDƏN İSTİSNALAR VƏ (VƏ YA) SIĞORTA TƏMİNATINDA MƏHDUDİYYƏTLƏR

6.1. Bu qaydaların 3.1.1 bəndinə münasibətdə aşağıdakı hallar üzrə sığorta təminatı verilmir:
6.1.1. Sığortalının, həmçinin onun nümayəndəsinin qəsdi;
6.1.2. Nüvə partlayışının təsiri, radiasiya və ya radioaktiv şüalanma;
6.1.3. Müharibə, təcavüz, hərbi əməliyyatlar, xarici dövlətlərin düşmənçilik hərəkətləri, elan edilib-edilməməyindən asılı olmayaraq təcavüzkar hərbi əməliyyatlar, vətəndaş müharibəsi, hər cür xalq ixtişaşları, tətillər, qiyam, tədricən xalq üsyanları və ya hərbi qiyamlara çevrilən xalq iğtişaşları, hərbi qiyam, inqilab, hərbi hərəkətlər, terror, antiterror əməliyyatları, sabotaj;
6.1.4. Dövlət orqanlarının sərəncamı ilə dəmiryol nəqliyyatı vasitəsinin məhvi, təyinatının dəyişdirilməsi, müsadirə edilməsi, üzərinə həbs qoyulması;
6.1.5. Dəmiryol nəqliyyat vasitəsinin zəbt edilməsi və ya qaçırılması;
6.1.6. Dəmiryol nəqliyyatı vasitəsinin gedişə buraxılmasına qədər onun hərəkətə yararsızlığı haqqında sığortalının və ya onun nümayəndəsinin xəbərdar olması;
6.1.7. Zərbə dalğasının bilavasitə və ya vasitəli təsiri (yəni, sığorta predmeti ilə toqquşmanın birbaşa təsiri olmayan hər hansı digər predmetlərin toqquşmasından yaranan zərbə dalğasının, habelə səs sürətinin aşması nəticəsində yaranan dalğanın vurduğu zərər);
6.1.8. Dəmiryol nəqliyyatı vasitəsinin sığorta müqaviləsində nəzərdə tutulmayan məqsədlər üçün istifadəsi;
6.1.9. Dəmiryol nəqliyyatı vasitəsini idarə etmə səlahiyyəti olmayan şəxslər tərəfindən idarə edilməsi;
6.1.10. Heyətin, sığortalının (faydalanan şəxs) və ya onun nümayəndəsinin yanğına qarşı təhlükəsizlik və dəmiryol hərəkəti üzrə təhlükəsizlik qaydalarına riayət olunmaması;
6.1.11. Sığorta olunmuş dəmiryol nəqliyyatı vasitələrindən təyinatı üzrə istifadə edilməməsi;
6.1.12. Dəmiryol nəqliyyatı vasitəsinin və ya onun hissələrinin köhnəlməsi, aşınması;
6.1.13. Dəmiryol nəqliyyatı vasitəsinin onun texniki xüsusiyyətlərində nəzərdə tutulmayan şərtlərlə istismarı;
6.1.14. Nəqliyyat vasitəsinin ayrı-ayrı hissələrinin sıradan çıxmasına və/və ya yanğın nəticəsində zədələnməsinə səbəb olmayan və müvafiq hissədən kənara çıxmayan qısa qapanma nəticəsində meydana çıxan zərərlər;

6.1.15. Onun digər hissələrinin zədələnməsinə səbəb olmayıbsa, dəmiryol nəqliyyat vasitəsinin hissələrinin sınması, təmir və istehsal qüsurları nəticəsində nəqliyyat vasitəsinin hissələrinin sıradan çıxması;

6.1.16. Dəmiryol nəqliyyatı vasitəsinin toksik və psixotrop maddələrin, kəskin təsirə malik dərman preparatlarının təsiri altında, spirtli və narkotik maddələr qəbul edərək, sərxoşluq vəziyyətində olan heyət və işçilər tərəfindən idarə edilməsi və koordinasiyası;

6.1.17. Sığortalı tərəfindən nəqliyyat vasitəsinin üçüncü şəxslərin istifadəsinə və ya idarəçiliyinə verildiyi müddətdə baş verən hadisələr;

6.1.18. Nəqliyyat vasitəsinin dəmir yolu relslərinin üzrərində olmadığı müddətdə baş verən hadisələr;

6.1.19. Naməlum qüvvənin təsiri;

6.1.20. Naməlum səbəbdən yoxolma;

6.1.21. Nəqliyyat vasitəsinin sınaq və təlim yürüşü, qəza və ya nasazlıq səbəbindən yoxlanış yürüşü zamanı baş vermiş hadisələr;

6.1.22. Nəqliyyat vasitəsində daşınan yükün nəqliyyat vasitəsinə zərər vurması, nəqliyyat vasitəsinə yüklərin yükləmə-boşaltma əməliyyatı nəticəsində dəymiş zərər;

6.1.23. Nəqliyyat vasitəsinin gövdəsi, konstruktiv elementləri, mexanizm və aqreqatlarının eyni hadisə nəticəsində zədələnməsi halları istisna olmaqla onun rəng örtüyünün, üzlük və döşəmə elemtlərinin zədələnməsi;

6.1.24. Üçüncü şəxslərin qərəzli hərəkətləri nəticəsində sərnişin vaqonlarının interyer elementlərinin (oturacaqlar, günlüklər, üzlüklər, yatacaq hissələri, sanitar qovşaq elementləri və s.) zədələnməsi, sıradan çıxarılması;

6.1.25. Nəqliyyat vasitəsinin istənilən digər nəqliyyat növü ilə yük kimi daşınması zamanı dəyən zərərlər;

6.2. Bu qaydaların 3.1.2 bəndinə münasibətdə 6.2.1 - 6.2.4-cü bəndlərdə qeyd olunmuş zərərlər və 6.2.5 – 6.2.24-cü bəndlərdə qeyd olunmuş səbəbdən baş verən zərərlər və hallar üzrə sığorta təminatı verilmir:

6.2.1. Öz xidməti vəzifələrini yerinə yetirdikləri anda sığortalı ilə əmək münasibətlərində olan şəxslərin əmlakına, həyat və sağlamlığına dəymiş zərər;

6.2.2. Sığortalının podratçıları və onların subpodratçılarının əmlakına, həyat və sağlamlığına dəymiş zərər;

6.2.3. Sığortalıya məxsus, istifadə və sərəncamında olan və ya hər hansı bir formada qanuni idarəçiliyində olan əmlaka dəymiş zərər;

6.2.4. Nəqliyyat vasitəsində daşınan yüklərə, sərnişinlərinin əmlakına, yüklərinə, həyat və sağlamlığına dəymiş zərər;

6.2.5. Sığortalının, həmçinin onun nümayəndəsinin qəsdi;

6.2.6. Nüvə partlayışının təsiri, radiasiya və ya radioaktiv şüalanma;

6.2.7. Müharibə, təcavüz, hərbi əməliyyatlar, xarici dövlətlərin düşmənçilik hərəkətləri, elan edilib-edilməməyindən asılı olmayaraq təcavüzkar hərbi əməliyyatlar, vətəndaş müharibəsi, hər cür xalq ixtişaşları, tətillər, qiyam, tədricən xalq üsyanları və ya hərbi qiyamlara çevrilən xalq iğtişaşları, hərbi qiyam, inqilab, hərbi hərəkətlər, terror, antiterror əməliyyatları, sabotaj;

6.2.8. Dəmiryol nəqliyyat vasitəsinin zəbt edilməsi və ya qaçırılması;

6.2.9. Dəmiryol nəqliyyatı vasitəsinin gedişə buraxılmasına qədər onun hərəkətə yararsızlığı haqqında sığortalının və ya onun nümayəndəsinin xəbərdar olması;

6.2.10. Dəmiryol nəqliyyatı vasitəsinin sığorta müqaviləsində nəzərdə tutulmayan məqsədlər üçün istifadəsi;

6.2.11. Dəmiryol nəqliyyatı vasitəsini idarə etmə səlahiyyəti olmayan şəxslər tərəfindən idarə edilməsi;

6.2.12. Heyətin, sığortalının (faydalanan şəxs) və ya onun nümayəndəsinin yanğına qarşı təhlükəsizlik və dəmiryol hərəkəti üzrə təhlükəsizlik qaydalarına riayət olunmaması;

6.2.13. Sığorta olunmuş dəmiryol nəqliyyatı vasitələrindən təyinatı üzrə istifadə edilməməsi;

6.2.14. Dəmiryol nəqliyyatı vasitəsinin onun texniki xüsusiyyətlərində nəzərdə tutulmayan şərtlərlə istismarı;

6.2.15. Dəmiryol nəqliyyatı vasitəsinin toksik və psixotrop maddələrin, kəskin təsirə malik dərman preparatlarının təsiri altında, spirtli və narkotik maddələr qəbul edərək, sərxoşluq vəziyyətində olan heyət və işçilər tərəfindən idarə edilməsi və koordinasiyası;
6.2.16. Sığortalı tərəfindən nəqliyyat vasitəsinin üçüncü şəxslərin istifadəsinə və ya idarəçiliyinə verildiyi müddətdə baş verən hadisələr;
6.2.17. Nəqliyyat vasitəsinin dəmir yolu relslərinin üzrərində olmadığı müddətdə baş verən hadisələr;
6.2.18. Gəlir itkisinin istənilən forması;
6.2.19. Mənəvi zərər;
6.2.20. Naməlum qüvvənin təsiri;
6.2.21. Nəqliyyat vasitəsinin sınaq və təlim yürüşü, qəza və ya nasazlıq səbəbindən yoxlanış yürüşü zamanı baş vermiş hadisələr;
6.2.22. Cərimələr və cəza tipli tədbirlər;
6.2.23. Ətraf mühitin çirklənməsi;
6.2.24. Tullantıların təmizlənməsi və utilizasiyası üzrə xərclər;
6.3. Bu qaydaların 6.1 və 6.2-ci bəndlərində nəzərdə tutulmuş istisna və məhdudiyyətlər qanunvericiliyə zidd olmadığı halda tərəflərin razılığı əsasında və əlavə sığorta haqqı ödənilməsi şərti ilə sığorta təminatına daxil edilə bilər.

## 7. SIĞORTA MƏBLƏĞİ VƏ ONUN MÜƏYYƏN EDİLMƏ QAYDASI

7.1. Sığorta məbləği sığortaçı ilə sığortalı arasında sığorta müqaviləsi ilə razılaşdırılaraq müəyyənləşdirilir və sığortalanmış risklər üzrə sığortaçının öhdəliyinin son həddidir.
7.2. Bu qaydaların 3.1.1 bəndinə münasibətdə sığorta məbləği iki formada müəyyən edilə bilər:
7.2.1. Sığorta hadisəsi baş verdikdə dəyişdirilən ehtiyyat hissələrinin dəyərinin tam ödənilməsi şərtilə;
7.2.2. Sığorta hadisəsi baş verdikdə dəyişdirilən ehtiyyat hissələrinin dəyərinə hər istismar ili üçün 3%, ümumilikdə 50%-dən artıq olmamaqla köhnəlmə əmsalının tətbiq edilməsi şərtilə.
7.2.2.1. İşlənmiş ehtiyyat hissələri ilə əvəzlənmə halında köhnəlmə əmsalı o halda tətbiq edilmir ki, işlənmiş ehtiyyat hissəsinin dəyəri yeni ehtiyyat hissəsinin dəyərindən ən azı 25% ucuzdur. Əks halda dəyişdirilən ehtiyyat hissəsinin dəyərinə bu qaydaların 7.2.2-ci bəndində müəyyən olunmuş qaydada köhnəlmə əmsalı tətbiq edilir.

## 8. SIĞORTA HAQQI VƏ SIĞORTA HAQQININ ÖDƏNİLMƏSİ QAYDASI

8.1. Sığorta müqaviləsi üzrə sığorta haqqı sığortaçı tərəfindən tarif dərəcələrinə əsasən hesablanır.
8.2. Sığorta haqqı risklərin qəbul edilməsi və ya bölüşdürülməsi müqabilində sığorta müqaviləsində nəzərdə tutulan qaydada sığortalının sığortaçıya ödəməli olduğu pul məbləğidir.
8.3. Sığorta müqaviləsi sığorta haqqının ilk hissəsinin və ya tam ödənilməsindən sonra qüvvəyə minir.
8.4. Sığorta haqqı və ya onun hissəsi vaxtında ödənilmədikdə sığortaçı onun ödənilməsi üçün bu qaydaların 8.5-ci maddəsinin tələbini nəzərə alaraq yazılı surətdə 15 günədək müddət müəyyən edə bilər.
8.5. Hər bir halda sığorta haqqı və ya onun razılaşdırılmış ilk hissəsi sığorta müqaviləsi bağlandığı gündən 1 aydan gec olmayaraq ödənilməlidir.

## 9. SIĞORTA MÜQAVİLƏSİNİN BAĞLANMASI, HƏMÇİNİN ONA ƏLAVƏLƏR VƏ DƏYİŞİKLİKLƏR EDİLMƏSİ VƏ XİTAM VERİLMƏSİ QAYDASI

9.1. Sığorta müqaviləsi yazılı formada bağlanılır və tərəflərin imzası, hüquqi şəxs olduqda imza və möhürlə təsdiqlənir.
9.2. Sığortaçının tələb etdiyi halda sığorta müqaviləsinin bağlanması üçün sığortalı müvafiq ərizə formasını

doldurur.
9.3. Sığorta müqaviləsində başqa cür nəzərdə tutulmamışdırsa, sığorta haqqının ilk hissəsinin və ya tam ödənilməsi halında, sığorta təminatının müddəti sığorta müqaviləsinin bağlandığı gün saat iyirmi dörddən başlanır və sığorta müqaviləsinə əsasən həmin müqavilənin qüvvədə olduğu sonuncu gün saat iyirmi dörddə başa çatır.
9.4. Sığortaçı sığortalıdan sığorta hadisəsinin baş verməsi ehtimalının müəyyən edilməsi məqsədilə əlavə sənədlərin təqdim olunmasını tələb etmək hüququna malikdir.
9.5. Sığorta müqaviləsi yazılı olaraq aşağıda qeyd olunan formada bağlanılır:
9.5.1. Sığorta müqaviləsində başqa cür nəzərdə tutulmamışdırsa, sığorta müqaviləsi 1(bir) illik bağlanılır.
9.5.2. Sığorta müqaviləsi imzalanarkən sığortalının fəaliyyətinin xüsusiyyətləri nəzərə alınaraq, sığortalı və sığortaçı sığortalının vəziyyətini pisləşdirməməsini nəzərə almaqla bu qaydaların müəyyən müddəalarının dəyişdirilməsi və ya istisna edilməsi, həmçinin ona müəyyən əlavələr edilməsi barədə razılığa gələ bilərlər.
9.5.3. Sığorta müqaviləsinə edilən bütün dəyişiklik və əlavələr mütləq yazılı şəkildə edilir və tərəflərin imzası, hüquqi şəxs olduqda imza və möhürlə təsdiqlənir.
9.6. Sığorta müqaviləsinə xitam verilməsi qaydası və onun nəticələri:
9.6.1. Sığorta müqaviləsinə aşağıdakı hallarda vaxtından əvvəl xitam verilir:
9.6.1.1. sığorta predmeti artıq mövcud olmadıqda;
9.6.1.2. aşağıdakı hallar istisna olmaqla, sığortalı fiziki şəxs öldükdə və ya sığortalı hüquqi şəxs ləğv olunduqda:
9.6.1.2.1. əmlak sığortası müqaviləsini bağlamış sığortalı sığorta müqaviləsi bağlayarkən sığortalanmış əmlakı qəbul edəcək hər hansı şəxsi təyin etmiş olduğu, habelə sığorta hadisəsi baş verənədək sığortaçının razılığı ilə onu dəyişdirmiş olduğu hallarda sığortalı fiziki şəxs vəfat edərsə, onun həmin müqavilə üzrə hüquq və vəzifələri bu məcəllə ilə müəyyən olunmuş vərəsəlik qaydasında sığortalanmış əmlakı qəbul edən şəxsə keçir;
9.6.1.2.2. müqavilədə başqa şərtlər müəyyən edilməmişdirsə, sığortalının hüquq və vəzifələri sığorta predmeti olan miras əmlakın yeni mülkiyyətçisinə, sahibinə və ya istifadəçisinə həm onun özünün, həm də sığortaçının müqavilədə rəsmiləşdirilən razılığı ilə keçir;
9.6.1.2.3. sığortalı olan hüquqi şəxs sığorta müqaviləsinin qüvvədə olduğu dövrdə yenidən təşkil edildikdə onun həmin müqavilə üzrə hüquq və vəzifələri qanunvericiliyə uyğun olaraq müvafiq hüquq varisinə keçir.
9.6.1.3. sığorta müqaviləsi üzrə sığortalı olmayan sığorta olunan vəfat etdikdə sığortalının onun başqası ilə əvəz olunması təklifinə sığortaçı etiraz etdikdə;
9.6.1.4. sığorta müqaviləsində digər hal nəzərdə tutulmamışdırsa, sığortalanmış əmlak özgəninkiləşdirilərkən sığortaçı sığortalının hüquq və vəzifələrinin əmlakın yeni mülkiyyətçisinə, sahibinə və ya istifadəçisinə keçməsinə etiraz etdikdə (əmlak özgəninkiləşdirilərkən sığortaçı sığortalının hüquq və vəzifələrinin əmlakın yeni mülkiyyətçisinə, sahibinə və ya istifadəçisinə keçməsinə etiraz etmədikdə əlavə sığorta haqqı ödənilmədən sığorta müqaviləsi üzrə sığortalı dəyişdirilir);
9.6.1.5. sığorta hadisəsinin baş verməsi ehtimalı olmadıqda və sığorta riskinin mövcudluğu, səbəbi sığorta hadisəsi olmayan hallara görə başa çatdıqda;
9.6.1.6. sığortaçı sığortalı qarşısında öz öhdəliklərini tam olaraq yerinə yetirdikdə;
9.6.1.7. sığortalı sığorta haqqını sığorta müqaviləsində müəyyən edilən qaydada ödəmədikdə;
9.6.1.8. sığorta marağı artıq mövcud olmadıqda;
9.6.1.9. sığortalı və ya sığortaçı sığorta müqaviləsinə vaxtından əvvəl xitam verilməsi tələbi ilə çıxış etdikdə.
9.6.2. Sığorta müqaviləsinə (qrup halında sığorta zamanı həm də müqaviləyə hər hansı bir sığorta predmetinə münasibətdə) sığortalının tələbi ilə vaxtından əvvəl xitam verildikdə, sığortaçı həmin müqavilə üzrə (qrup halında sığorta zamanı isə müqavilənin hər hansı sığorta predmeti ilə bağlı sığorta haqqına mütənasib olan) sığorta haqqının qaytarılan hissəsindən işlərin aparılması xərclərinin müqavilənin qurtarmamış müddətinə mütənasib hissəsini çıxmaqla həmin müddət üçün sığorta haqlarını ona qaytarır.

Sığortalının sığorta müqaviləsinə xitam verilməsi ilə bağlı tələbi sığortaçının sığorta müqaviləsi üzrə vəzifələrini yerinə yetirməməsi ilə bağlıdırsa, sığortaçı sığorta haqlarını (qrup halında sığorta zamanı həm də müqavilənin hər hansı bir sığorta predmeti üzrə ödənilmiş sığorta haqlarını) bütünlüklə sığortalıya qaytarır.
9.6.3. Sığorta müqaviləsinə (qrup halında sığorta zamanı, həm də müqaviləyə hər hansı bir sığorta predmetinə münasibətdə) sığortaçının tələbi ilə vaxtından əvvəl xitam verildikdə o, sığorta haqlarını (qrup halında sığorta zamanı, həm də müqavilənin hər hansı bir sığorta predmeti üzrə ödənilmiş sığorta haqlarını) bütünlüklə sığortalıya qaytarır. Əgər bu tələb sığortalının sığorta müqaviləsi üzrə vəzifələrini yerinə yetirməməsi ilə bağlıdırsa, sığortaçı müqavilənin qurtarmamış müddəti üçün sığorta haqlarını (qrup halında sığorta zamanı, həm də müqavilənin hər hansı bir sığorta predmeti üzrə ödənilmiş sığorta haqlarını) qaytarır. Bu halda sığortaçı sığorta müqaviləsi üzrə (qrup halında sığorta zamanı isə müqavilənin hər hansı sığorta predmeti ilə bağlı sığorta haqqına mütənasib olan) sığorta haqqının qaytarılan hissəsindən işlərin aparılması xərclərinin müqavilənin qurtarmamış müddətinə mütənasib hissəsini çıxa bilər.
9.6.4. Sığorta müqaviləsinə (qrup halında sığorta zamanı, həm də müqaviləyə hər hansı bir sığorta predmetinə münasibətdə) vaxtından əvvəl xitam verildiyi halda, əgər xitam verilmə anınadək sığortaçı tərəfindən sığortalıya ödənilmiş sığorta haqqına (qrup halında sığorta zamanı, həm də müqavilənin hər hansı bir sığorta predmeti üzrə ödənilmiş sığorta haqlarına) bərabər və ya ondan çox miqdarda sığorta ödənişi verilmişdirsə, sığorta haqqı (qrup halında sığorta zamanı, həm də müqavilənin hər hansı bir sığorta predmeti üzrə ödənilmiş sığorta haqları) sığortalıya qaytarılmır.
9.6.5. Sığorta müqaviləsinə vaxtından əvvəl xitam verildiyi halda, əgər xitam verilmə anınadək ödənilmiş sığorta haqqından (qrup halında sığorta zamanı, həm də müqavilənin hər hansı bir sığorta predmeti üzrə ödənilmiş sığorta haqlarından) az miqdarda sığorta ödənişi verilmişdirsə, həmin sığorta haqqı məbləği ilə sığorta ödənişi məbləği arasındakı fərq miqdarında sığorta haqqının sığortalıya qaytarılması müvafiq olaraq bu qaydaların 9.6.2-ci və 9.6.3-cü bəndlərində nəzərdə tutulmuş qaydada həyata keçirilir.
9.6.6. Bu qaydaların 9.6.1-ci bəndində göstərilən hallarda sığorta müqaviləsinə xitam verilməsi üçün əsas olan şərait yarandıqda müqaviləyə xitam verilməsində maraqlı olan tərəf dərhal digər tərəfi bu barədə xəbərdar etməlidir.
9.6.7. Sığorta müqaviləsinə bu qaydaların 9.6.1.9 bəndinə uyğun olaraq sığortalının və ya sığortaçının tələbi ilə vaxtından əvvəl xitam verilərkən bu barədə bir tərəf digərinə ən azı 30 (otuz)gün əvvəl (sığorta müqaviləsi beş ildən çox müddətə bağlanmış olduqda 60 (altmış) gün, 3 (üç) aydan az müddətə bağlanmış olduqda isə 5 (beş) iş günü əvvəl) tələbini əsaslandırdığı yazılı bildiriş göndərməlidir.

## 10.TƏRƏFLƏRİN HÜQUQ VƏ VƏZİFƏLƏRİ

10.1 Sığortalı aşağıdakı hüquqlara malikdir:

10.1.1. sığorta müqaviləsi bağlanarkən sığortaçının müstəqil auditor tərəfindən təsdiqlənmiş illik balansı və fəaliyyətinin illik yekunlarına dair maliyyə nəticələri ilə tanış olmaq;
10.1.2. sığorta müqaviləsi bağlanarkən bu qaydalarla tanış olmaq;
10.1.3. sığorta müqaviləsi üzrə istənilən açıqlamanı sığortaçıdan sorğu etmək;
10.1.4. sığortaçının razılığı ilə sığorta məbləğinin və ayrı-ayrı sığorta riskləri üzrə sığorta məbləğlərinin ölçüsünə, sığorta müddətinə, sığorta haqlarının ölçüsünə dair sığorta müqaviləsinin şərtlərini dəyişdirmək. Belə dəyişikliklər sığorta müqaviləsinə əlavə sazişlə rəsmiləşdirilməlidir;
10.1.5. sığorta müqaviləsinə vaxtından əvvəl xitam vermək;
10.1.6. bu qaydalarda, sığorta müqaviləsində və qanunvericilikdə nəzərdə tutulan digər hüquqlardan istifadə etmək.
10.2. Sığortalının vəzifələri aşağıdakılardır:
10.2.1. sığorta müqaviləsi bağlanarkən sığortalı özünə məlum olan və / və ya sığortaçının birbaşa sorğu etdiyi, sığortaçının müqavilədən imtina etmək, yaxud onu məzmunu dəyişdirilmiş şəkildə bağlamaq qərarına təsir göstərə bilən bütün hallar barədə məlumatları sığortaçıya vermək;

10.2.2. sığorta müqaviləsində müəyyən edilmiş məbləğdə və müddətlərdə sığorta haqqını ödəmək;
10.2.3. sığortalı bildirilmiş hallarla bağlı sığorta müqaviləsi bağlandıqdan sonra meydana çıxan bütün dəyişikliklər barədə sığortaçıya və ya sığortaçının adından çıxış edən sığorta vasitəçisinə məlumat vermək;
10.2.4. sığorta hadisəsinin baş vermə ehtimalının və sığorta hadisəsi hesab edilə bilən hadisələrin səbəb olduğu zərərin həcminin azaldılması məqsədi ilə özündən asılı olan bütün ağlabatan və zəruri tədbirləri görmək;
10.2.5. sığorta hadisəsinin baş verməsi faktını təsdiq edən, zərərin qiymətləndirilməsi və (və ya) sığorta ödənişinin həcminin müəyyənləşdirilməsi üçün lazım olan sənədləri və məlumatları sığortaçıya (və ya təyin edilmiş müstəqil ekspert, yaxud sığorta sahəsində yardımçı fəaliyyət göstərən şəxsə) vermək;
10.2.6. sığortaçıya (və ya təyin edilmiş müstəqil ekspert, yaxud sığorta sahəsində yardımçı fəaliyyət göstərən şəxsə) sığorta hadisəsinin baş verməsi səbəblərini araşdırmasına və/və ya zərərin qiymətləndirilməsinə imkanı yaratmaq və maneçilik törətməmək;
10.2.7. sığortaçının ona rəsmi bildirilmiş qanunvericilikdə nəzərdə tutulmuş bütün göstərişlərinə əməl etmək;
10.2.8. bu qaydalarda, sığorta müqaviləsində və qanunvericilikdə nəzərdə tutulan digər vəzifələri yerinə yetirmək;
10.3 Sığortaçı aşağıdakı hüquqlara malikdir:
10.3.1. sığorta müqaviləsi bağlanarkən sığortalının özünə məlum olan və / və ya etdiyi, sığortaçının müqavilədən imtina etmək, yaxud onu məzmunu dəyişdirilmiş şəkildə bağlamaq qərarına təsir göstərə bilən bütün hallar barədə sığortalıya sorğu vermək;
10.3.2. sığorta hadisəsinin baş verməsi səbəblərini araşdırması və /və ya zərərin qiymətləndirilməsi üçün müstəqil eksperti, yaxud sığorta sahəsində yardımçı fəaliyyət göstərən şəxsi təyin etmək. Sığorta hadisəsinin araşdırılması və zərərin qiymətləndirilməsi üçün təyin olunan müstəqil ekspertlər və sığorta sahəsində yardımçı fəaliyyət göstərən şəxslər bununla bağlı sığortaçının malik olduğu bütün hüquqlardan istifadə edə bilərlər;
10.3.3. sığorta hadisəsinin baş verməsi faktını təsdiq edən və (və ya) sığorta ödənişinin həcminin müəyyənləşdirilməsi üçün lazım olan sənədləri və məlumatları sığortalıdan ələb etmək;
10.3.4. sığorta ödənişinin ödənilməsi zamanı sığorta ödənişi məbləğindən sığortalının sığortaçıya ödəməli olduğu, vaxtı çatmış və ya gecikdirilmiş sığorta haqqı məbləğini tutmaq;
10.3.5. sığortalı tərəfindən bağlanan müqavilə şərtlərinə əməl edilməsini yoxlamaq;
10.3.6. sığorta riski həddində artım baş verdikdə ona mütənasib sürətdə sığorta haqqının artırılmasını, ona xitam verilməsini və ya müqavilə şərtlərinin dəyişdirilməsini Azərbaycan Respublikasının qanuvericiliyinə müvafiq qaydada tələb etmək;
10.3.7. bu qaydalarda, sığorta müqaviləsində və qanunvericilikdə nəzərdə tutulan digər hüquqlardan istifadə etmək.
10.4. Sığortaçının vəzifələri aşağıdakılardır:
10.4.1. sığortalını sığorta müqaviləsinin əsaslandığı bu qaydalarla tanış etmək;
10.4.2. sığorta hadisəsi hesab edilə bilən, qanunvericiliyə uyğun olaraq araşdırılması və ya qeydə alınması tələb olunan hadisələr barədə səlahiyyətli dövlət orqanlarına belə hadisələrin baş verməsi faktını və / və ya səbəbini, habelə nəticələrini təsdiq edən sənədin alınması üçün yazılı sorğu vermək;
10.4.3. sığorta hadisəsi baş verdikdə qaydaların 12.10.1-ci bəndində nəzərdə tutulan sənədlərdən sonuncusunun sığortaçıya daxil olduğu tarixdən 7 (yeddi) iş günündən gec olmayaraq sığorta ödənişini vermək, yaxud sığortalıya, sığorta olunana və ya faydalanan şəxsə sığorta ödənişinin verilməsindən imtina haqqında yazılı şəkildə əsaslandırılmış bildiriş təqdim etmək;
10.4.4. sığorta müqaviləsi ilə əlaqədar olan məlumatları sığorta qanunvericiliyində nəzərdə tutulmuş qaydada sığorta sirri kimi saxlamaq;
10.4.5. bu qaydalarda, sığorta müqaviləsində, və qanunvericilikdə nəzərdə tutulan digər vəzifələri yerinə yetirmək.

## 11. SIĞORTA HADİSƏSİ BAŞ VERDİKDƏ SIĞORTALININ VƏZİFƏLƏRİ

11.1. Sığorta hadisəsinin baş verməsi barədə sığortalı, yaxud faydalanan şəxs hadisədən xəbər tutduqdan dərhal sonra və ya mümkün olan ən qısa müddət ərzində sığortaçıya və ya onun nümayəndəsinə, eyni zamanda, qanunvericiliyə uyğun olaraq, həmin hadisə barədə məlumatlandırılmalı olan səlahiyyətli dövlət orqanlarına hər hansı vasitə ilə xəbər verməlidir.
11.2. zərərin qarşısının alınması və ya təsirinin azaldılması və zərər vurulmuş əmlakın xilas edilməsi üçün bütün mümkün tədbirləri görməli və belə tədbirlərin görülməsi zamanı Sığortaçıdan aldığı bütün təlimatlara əməl etməlidir.
11.3. Sığortaçının və ya onun nümayəndələrinin zərər dəymiş əmlaka baxışın keçirilməsində və ya tədqiq edilməsində, vurulmuş zərərin səbəb və həcminin müəyyən edilməsində, zərərin təsirinin azaldılması və zərər vurulmuş əmlakın xilas edilməsi tədbirlərində iştirakını təmin etməlidir.
11.4. Sığortalanmış əmlakın məhv olması və ya vurulmuş zərərin həcmi və səbəblərini müəyyənləşdirmək üçün sığortaçının tələbi ilə zəruri bütün məlumat və bu qaydaların 12.10.1-ci bəndində müəyyən edilmiş sənədləri sığortaçıya təqdim etməlidir.
11.5. Əmlak sığortası müqaviləsi üzrə sığortalı aşağıdakı hallar istisna olmaqla, zərər dəymiş əmlakı sığorta hadisəsindən dərhal sonrakı vəziyyətdə sığortaçıya və ya onun səlahiyyətli nümayəndəsinə təqdim etməlidir:
11.5.1. zərərin qarşısının alınması və ya həcminin azaldılması, sığorta hadisəsinin nəticələrinin aradan qaldırılması, yaxud digər fəsadlara səbəb olmaması, habelə zərər dəymiş əmlakın sonrakı itkiləri üçün təhlükə ehtimalına səbəb ola bilən nəzarətsiz halda qalmaması, başqa şəxslərin hərəkətinə və ya fəaliyyətinə mane olmaması üçün zəruri tədbirlərin görülməsi, o cümlədən bu məqsədlərlə əmlakın hadisə yerindən kənarlaşdırılması zamanı zərər dəymiş əmlakın hadisədən dərhal sonrakı vəziyyətdə saxlanması mümkün olmadıqda;
11.5.2. sığortaçı sığorta hadisəsi barədə bu qaydalarda nəzərdə tutulmuş müddətdə məlumatlandırıldıqdan 5 gün müddətində onun nümayəndəsi zərər dəymiş əmlaka baxış keçirmədikdə;
11.5.3. digər hallarda zərər dəymiş əmlakın sığorta hadisəsindən dərhal sonrakı vəziyyətdə saxlanmamasına sığortaçının yazılı razılığı olduqda.

## 12. SIĞORTA ÖDƏNİŞİNİN HƏYATA KEÇİRİLMƏSİ QAYDASI

12.1. Sığortaçı sığorta hadisə nəticəsində ortaya çıxan aşağıdakı zərərləri ödəyir:
12.1.1. Sığorta obyektinə dəyən birbaşa zərər:
12.1.1.1. dəmiryol nəqliyyatı vasitəsinə dəyən real zərər;
12.1.1.2. sığortaçı tərəfindən ödəniləcək zərərin azaldılması və ya qarşısının alınması məqsədilə çəkilən zəruri və məqsədyönlü xərclər;
12.1.1.3. sığorta hadisəsinin səbəbini və şəraitini araşdırmaq, həmçinin sığortaçı tərəfindən ödənilməli olan zərərin miqdarını müəyyən etmək məqsədilə çəkilən xərclər.
12.1.2. Dəmiryol nəqliyyatı vasitəsinə dəyən zərər aşağıdakı kimi müəyyən edilir:
12.1.2.1. məhv olduqda (oğurluq nəticəsində itmə, tam və ya konstruktiv məhv) – sığorta hadisəsi baş verən andakı bazar qiyməti həcmində;
12.1.2.2. təmir xərcləri həcmində;
12.2. Sığortaçının seçiminə görə əmlakın təmir xərcləri və ixtisaslaşmış ekspert təşkilatı tərəfindən hazırlanmış, tələb olunan təmirin (bərpanın) qiymətinin ilkin smetası (hesablanması, qiymətləndirilməsi) əsasında, ya da real təmir faktına əsasən müəyyən olunur.
12.3. Sığortaçı sığorta olunmuş əmlaka dəymiş zərərin əvəzini yuxarıda göstərildiyi kimi müəyyən edilmiş qaydada hər bir sığorta hadisəsi üzrə sığorta məbləği həddində ödəyir.
12.4. Vurduğu zərərə görə sığortalının üzərinə qoyulmuş məbləği sığortaçı ödəyir.

12.5. Sığorta ödənişi sığortaçı sığortalıdan zərər faktını, onun səbəblərini və həcmini təsdiq edən bütün zəruri sənədləri aldıqdan sonra 7 (yeddi) iş günü ərzində verir və ya yazılı şəkildə əsaslandırmaqla ödənişdən imtina edir.
12.6. Sığorta ödənişinin hesablanması aşağıdakı qaydada həyata keçirilir:
12.6.1. qismən sığorta zamanı – zərərin sığorta məbləğini sığorta dəyərinə olan nisbətinə mütənasib hissəsi müəyyən edilir;
12.6.2. sığorta şəhadətnaməsində azadolma nəzərdə tutulduqda – ödənişin həcmi azadolmanın miqdarı çıxılmaqla müəyyən edilir.
12.7. Hər bir sığorta hadisəsinə görə sığorta ödənişinin ümumi miqdarı sığorta məbləğini aşa bilməz.
12.8. Sığortaçı sığortalanmış əmlakın məhv olmasının əvəzini ödədikdə və ya onun ayrı-ayrı hissələrini başqası ilə əvəz etdikdə sığortalının həmin əmlaka və dəyişilmiş hissələrə olan hüquqları sığortaçıya keçir. Bütün qalıqlar sığortaçıya təhvil verilməlidir.
12.9. Sığortalı həmin hüquqların sığortaçıya keçməsi üçün bütün zəruri tədbirləri görməyə borcludur.
12.10. Sığorta ödənişinin verilməsi:
12.10.1. Sığortalı və ya faydalanan şəxs tərəfindən aşağıda göstərilən sənədlərdən sonuncusunun təqdim edildiyindən sonra 7 (yeddi) iş günü ərzində sığortaçı sığorta ödənişinin verilməsi, yaxud sığorta ödənişi verməkdən imtina olunması haqqında qərar qəbul edir:

- sığorta hadisəsi baş verdikdə, sığortalının, sığorta olunanın və ya faydalanan şəxsin sığortaçıya ünvanladığı sığorta tələbi;
- sığorta hadisəsi hesab edilə bilən hadisə ilə bağlı hər hansı dövlət orqanına məlumat verilməlidirsə, həmin orqanın hadisə barədə təqdim etdiyi müvafiq sənəd;
- sığorta hadisəsininin baş verməsini təsdiqləyən sənədlər;
- zərər məbləğinin həcminin müəyyənləşdirilməsi üçün lazım olan sənədlər;
- icarəyə və ya hər hansı fərqli formada digər şəxsə istismar üçün verildiyi halda sığorta predmetinə istifadə hüququnu təsdiq edən sənədlər;
- əmlakına zərər dəymiş üçüncü şəxslərin mülkiyyət hüququnu təsdiq edən sənədlər;
- sağlamlığına zərər dəymiş şəxslərin şəxsiyyətini təsdiq edən sənədlər, müvafiq hallarda müalicə və müayinə xərclərini təsdiq edən sənədlər, zəruri hallarda tibbi sosial-ekspert komissiyasının arayışı, tibbi ekspertiza rəyi, ölüm faktını təsdiq edən sənədlər, habelə ölənin ailə üzvlərinin onunla qohumluq əlaqəsini təsdiq edən müvafiq sənədlər;
- təkrarsığortaçıların tələblərinə əsasən təyin edilmiş hadisənin baş vermə səbəblərini, şəraitini və digər təfərrüatları müəyyən edən ekspert rəyləri;
- sığortalanmış əmlakın istismarına dair bort cədvəlləri, istismar qaydalarının şərtlərini müəyyənləşdirən sənədlər, müəyyən edilmiş marşrutla hərəkət haqqında sənədlər, heyət üzvlərinə aid və onların xidmətə təyin edilməsinə dair sənədlər, dəmiryolu nəqliyyatı vasitələrinin istismar edilməsinə dair digər sənədlər.

12.10.2. Sığortaçı sığorta müqaviləsi ilə təminat verilmiş hadisələr baş verdikdə, sığorta ödənişini bu qaydaların 12.10.1-ci bəndinə əsasən sığortaçının tələb etdiyi sənədlərə və sığortaçının və ya onun nümayəndəsinin tərtib etdiyi sığorta aktına əsasən ödəyir.
12.10.3. Sığortaçı sığorta hadisəsi hesab edilə bilən hadisə ilə bağlı bu qaydalarda nəzərdə tutulmuş bütün sənədlər təqdim olunduqdan sonra 7 (yeddi) iş günündən gec olmayan müddət ərzində sığorta ödənişini ödəyir və ya sığorta ödənişindən imtina edilməsi barədə əsaslandırılmış məktubu sığortalıya və faydalanan şəxsə göndərir. Sığortaçının sığorta ödənişinin həyata keçirilməsi tarixi onun müvafiq ödəniş tapşırığındakı bank qeydinin tarixi sayılır. Sığortaçının sığorta ödənişini verməkdən imtina edilməsi tarixi poçt xidmətinin imtina məktubunun qəbul etdiyi tarix sayılır. İmtina məktubu sığortalının və faydalanan şəxsin sığorta müqaviləsində göstərilmiş ünvanlarına göndərilir.

## 13. SIĞORTA ÖDƏNİŞİNİN VERİLMƏSİNDƏN İMTİNANIN ƏSASLARI

13.1. Sığortaçı sığorta ödənişinin verilməsindən aşağıdakı hallarda imtina edir:
13.1.1. bu qaydaların 11.1-ci bəndinin tələblərinə əməl edilməməsi nəticəsində sığortaçının hadisənin sığorta hadisəsi olub-olmamasını müəyyənləşdirmək imkanından məhrum olması;
13.1.2. qanunvericilikdə nəzərdə tutulmuş məsuliyyəti istisna edən hallardan başqa, sığortalının sığorta hadisəsinin baş verməsinə yönələn qəsdən etdiyi hərəkəti və ya hərəkətsizliyi, habelə sığorta hadisəsi ilə birbaşa səbəb əlaqəsində olan qəsdən cinayət törətməsi;
13.1.3. sığorta müqaviləsi ilə və ya qanunla hərbi risklərin sığortalanması nəzərdə tutulmadıqda hadisənin baş verməsinin hərbi əməliyyatlar və ya hərbi xarakterli tədbirlər hesab edilən halların nəticəsi olması;
13.1.4. sığortalının sığortalanmış əmlaka dəyən zərərin qarşısını almaq və ya həcmini azaltmaq üçün lazımi və mümkün tədbirləri görmək iqtidarında olduğu halda, həmin tədbirləri qəsdən görməməsi; bu zaman sığorta ödənişindən o həcmdə imtina edilə bilər ki, sığortalı mümkün tədbirləri görmüş olsaydı, zərərin miqdarı həmin həcmdə azalmış olardı;
13.1.5. məlumatların yanlışlığı sığorta müqaviləsi bağlanarkən və ya ona hər-hansı dəyişiklik və ya əlavə edilərkən sığortaçıya məlum olduğu və ya sığortalı yanlış məlumatların verilməsində təqsirli olmadığı hallar istisna olmaqla, sığorta hadisəsi barəsində sığortalının sığortaçıya qəsdən yanlış məlumat verməsi nəticəsində sığortaçının sığorta riskini qiymətləndirmək, həmçinin sığorta hadisəsinin səbəblərini və / və ya dəyən zərərin həcmini müəyyənləşdirmək imkanından tam və ya qismən məhrum olması;
13.1.6. baş vermiş hadisənin sığorta müqaviləsinə görə sığorta hadisəsi hesab edilməməsi;
13.1.7. sığorta haqqının növbəti hər hansı bir hissəsinin müqavilədə nəzərdə tutulmuş ödənilməsi müddəti başa çatdıqdan 15 gün sonra, bu qaydaların 8.4-cü maddəsində nəzərdə tutulmuş halda isə sığortaçının müəyyən etdiyi müddətin başa çatmasından 3 gün sonra sığorta hadisəsinin baş verməsi halında sığorta haqqının müvafiq hissəsi ödənilməmiş olduqda;
13.1.8. baş vermiş sığorta hadisəsi bu qaydaların 6.1 və 6.2 bəndlərində qeyd olunan istisna siyahısına düşdükdə;
13.1.9. sığorta qanunvericiliyində nəzərdə tutulmuş digər hallarda.

## 14. VALYUTA BARƏSİNDƏ QEYD-ŞƏRT

14.1. Sığorta məbləği, azadolma məbləği, sığorta haqqı və sığorta ödənişləri xarici valyuta ilə göstərildiyi halda da ödənişlər milli valyuta - Azərbaycan manatı ilə, Azərbaycan Respublikası Mərkəzi Bankının ödəniş gününə olan rəsmi məzənnəsi ilə, yaxud Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq hər hansı xarici valyuta ilə həyata keçirilməlidir.
14.2. Sığorta ödənişinin hesablanması üçün əsas olan sənədlərdəki göstəricilər sığorta müqaviləsinin valyutasından fərqli olaraq Azərbaycan manatı və ya digər valyuta ilə ifadə olunduğu halda, müqavilənin valyutasına çevirmə, Azərbaycan Respublikası Mərkəzi Bankının müvafiq sənədin tərtib olunduğu günə müəyyən etdiyi rəsmi məzənnə əsasında aparılır.

## 15. SIĞORTANIN ƏRAZİSİ

15.1. Dəmiryol nəqliyyatı vasitələri ancaq sığorta müqaviləsində göstərilmiş ərazidə (sığorta ərazisi/gediş marşrutu) sığortalanmış sayılır.

## 16. AZADOLMA MƏBLƏĞİ

16.1. Sığorta müqaviləsi ilə şərtli və ya şərtsiz azadolma məbləği müəyyən oluna bilər.
16.2. Azadolma məbləği hər bir halda sığorta müqaviləsinə uyğun olaraq müəyyən edilən sığorta ödənişi

məbləğinə tətbiq olunur.
16.3. Şərtli azadolma məbləğinin nəzərdə tutulması halında, sığorta hadisəsi nəticəsində dəyən zərərin həcmi həmin məbləğdən çox olduqda, zərər məbləğindən azadolma məbləği çıxılmır;
16.4. Şərtsiz azadolma məbləği nəzərdə tutulduqda, həmin məbləğ hər bir halda zərər məbləğindən çıxılır.

## 17. SUBROQASİYA

17.1. Subroqasiya hüququ sığorta ödənişi almış şəxsin ona dəymiş zərərə görə məsuliyyət daşıyan üçüncü şəxsə qarşı malik olduğu hüquqlardan və vasitələrdən həmin ödənişi vermiş sığortaçının istifadə etmək hüququdur.
17.2. Sığortalının (faydalanan şəxsin) zərərvuran şəxsə qarşı zərərin əvəzini ödəmək tələbi (iddiası) ilə bağlı hüquq əmlak sığortası üzrə sığorta ödənişini vermiş sığortaçıya subroqasiya qaydasında onun verdiyi sığorta ödənişi məbləğində keçir.
17.3. Sığortalı (faydalanan şəxs) sığorta ödənişini aldıqda, subroqasiya hüququnun həyata keçirilməsi üçün özündə olan bütün lazımi sənədlərlə sığortaçını təmin etməlidir.
17.4. Sığortalı (faydalanan şəxs) şəxs zərərvuran şəxsə qarşı iddiadan və ya tələbi təmin edən hüquqlardan, yaxud lazımi sənədləri sığortaçıya verməkdən imtina etdikdə, sığortaçı sığorta ödənişi verməkdən zərərvuran şəxsdən subroqasiya qaydasında ala biləcəyi məbləğ həcmində azad edilir və ya artıq həyata keçirilmiş sığorta ödənişinin qaytarmasını tələb edə bilər.
17.5. Sığortaçı subroqasiya hüququndan zərərvuran şəxsin özünə və (və ya) müvafiq sığorta hadisəsi ilə bağlı risklər üzrə həmin şəxsin məsuliyyətini sığortalamış sığortaçıya, həmçinin qanunvericiliyə əsasən, dəyən zərərə görə sığortalı və ya faydalanan şəxs qarşısında maddi məsuliyyət daşıya bilən digər şəxsə qarşı istifadə edə bilər.

## 18. XÜSUSİ ŞƏRTLƏR

18.1. Tərəflərin qarşılıqlı razılığına əsasən, Azərbaycan Respublikasının qanunvericiliyinə və bu qaydalara zidd olmaması şərtilə, sığorta müqaviləsində əlavə şərtlər nəzərdə tutula bilər.

## 19. SIĞORTA MÜQAVİLƏSİNİN ŞƏRTLƏRİNİN YERİNƏ YETİRİLMƏMƏSİNƏ VƏ YA LAZIMİ QAYDADA YERİNƏ YETİRİLMƏMƏSİNƏ GÖRƏ TƏRƏFLƏRİN MƏSULİYYƏTİ

19.1. Sığorta müqaviləsinin şərtlərinin yerinə yetirilməməsinə və ya lazımi qaydada yerinə yetirilməməsinə görə tərəflər bir-birləri qarşısında Azərbaycan Respublikası qanunvericiliyində nəzərdə tutulmuş məsuliyyət daşıyırlar.

## 20. MƏLUMAT VƏ XƏBƏRDARLIQLARIN ÇATDIRILMASI

20.1. Müqavilə tərəfləri bir-birinə yolladığı bildiriş və xəbərdarlıqlara dair aşağıdakı tələblərə riayət etməlidir:

a) Müqaviləyə müvafiq olaraq göndərilən hər hansı məlumat, bildiriş, xəbərdarlıq və ya razılıq yazılı şəkildə tərtib olunmalı və şəxsən, qabaqcadan ödənilmiş poçt və ya kuryer (çatdırma barədə bildiriş ilə), faks və ya teleks vasitəsi ilə müqavilədə göstərilmiş ünvanlara göndərilməlidir.
b) Tərəflərin ünvanları dəyişdiyi halda onlar bir-birinə bu barədə əvvəlcədən məlumat göndərməlidir. Əgər sığorta müqaviləsi üzrə tərəf digər tərəfin ünvanının dəyişməsi barədə məlumatlandırılmayıbsa, keçmiş ünvana göndərilən bütün bildiriş və xəbərdarlıqlar keçmiş ünvana çatdırıldığı andan qəbul olunmuş hesab olunurlar.

## 21. MÜBAHİSƏLƏRİN HƏLLİ QAYDASI

21.1. Sığorta müqaviləsi ilə bağlı bütün məsələlər, o cümlədən tərəflər arasında yaranan fikir ayrılığı və mübahisələr bir qayda olaraq danışıqlar yolu ilə həll edilir. Əgər danışıqlar yolu ilə nəticə əldə edilməzsə, fikir ayrılıqları və mübahisələr barədə Azərbaycan Respublikasının Mərkəzi Bankına və/və ya Azərbaycan Respublikasının məhkəmələrinə müraciət oluna bilər.

## Dəmiryol nəqliyyatı vasitələrinin tam sığortası

## TARİF DƏRƏCƏLƏRİNİN HESABLANMASI

Tarif dərəcələrinin əsaslandırılması “Qeyri-həyat sığortası sahəsi üzrə sığorta tariflərinin hesablanması haqqında” Metodikadan istifadə edilməklə aparılır. Tarif dərəcəsini hesablayarkən əvvəlcə netto-dərəcəni hesablayırlar. Netto-dərəcənin hesablanmasında aşağıdakı məlumatlardan istifadə edilir:

1. Sığorta hadisəsinin baş verməsi ehtimalı (q) – 0.0015;
2. Bir sığorta müqaviləsi üzrə orta sığorta məbləği (So) – 28 000 000 manat;
3. Bir sığorta hadisəsi üzrə orta sığorta ödənişi (Sö) – 18 000 000 manat;
4. Bağlanılanacaq sığorta müqavilələrinin sayı (n) – 5 .

Tn, Tə və Tr ilə müvafiq olaraq netto-dərəcəni, onun əsas hissəsini və risk üstəliyini işarə edək. Netto-dərəcənin əsas hissəsi 100 manat sığorta məbləğinə uyğun olaraq aşağıdakı düsturla hesablanır:

Tə = 100*q*Sö/So = 100*0.0015*28 000 000 / 18 000 000 = 0.031 manat

Risk üstəliyini hesablamaq üçün təminat ehtimalını γ=0.98 götürək. Bu halda həmin ehtimala uyğun əmsal ά(γ)=2 olur. Risk üstəliyi aşağıdakı düsturla hesablanır:

$Tr = 1.2\ Tə\ ά(γ)\ ((1\text{-}q)\ /(nq))^{1/2} = 0.031*1.2*2*((1\text{-}0.0015) / (5*0.0015))^{1/2} = 0.89$ manat

Tn = Tə + Tr = 0.89 + 0.031 = 0.89 manat.

Tarif dərəcələrinin strukturu: netto-dərəcə - 45% , yüklənmə - 55% .

55% yüklənməyə daxildir:

50% komisyon muzd, 3% digər administrativ xərclər və 2% tarif mənfəəti

Brutto-dərəcəni Tb ilə işarə edək. Onda brutto-dərəcənin hesablanması düsturuna əsasən

Tb = Tn /(1-f) =0.89 / (1- 0.55) = 1.98 manat.

Sığorta obyektinin xarakteristikasından sığorta riskinin dərəcəsinə təsir edən amillərdən (su nəqliyyatı vasitəsinin istifadə olunduğu ərazi və hava şəraiti, nəqliyyat vasitəsinin tipi və istehsal tarixi), azadolma məbləğindən və s. səbəblərdən asılı olaraq yuxarıda alınan bazis tarif dərəcəsinə azaldıcı və ya artırıcı əmsallar tətbiq edilir. Nəticədə yekun tarif dərəcələri 0.1% – 15% aralığında dəyişir.

Tarifin hesablanmasında istifadə oluna bilən maksimal əmsal düsturu

2.2 (Siyası böhran yaşayan ölkələr üzrə (məsələn, Əfqanıstan İslam Respublikası-nın ərazisi))

2.1 (Yüksək zərərlilik ehtimalı olan sığorta obyektləri üzrə)

1.4 (Sığorta obyektinin buraxılış ili və istismarı üzrə)

1.1 (Yüksək risklər üzrə zərərlərin inkişaf əmsallarının statistikası)

Qeyd olunan əmsalların tətbiqi nəticəsində baza tarifinin formalaşması düsturu

| | | | | |
|---|---|---|---|---|
| 2,2 | 2,1 | 1,4 | 1,1 | 14-15% |
| 2,2 | 2,1 | 1,4 | | 12-14% |
| 2,2 | 2,1 | 1,1 | | 10-11% |
| 2,2 | 1,4 | 1,1 | | 6-8% |
| 2,1 | 1,4 | 1,1 | | 6-7% |
| 2,2 | 2,1 | | | 9-10% |
| 2,2 | 1,4 | | | 6-7% |
| 2,2 | 1,1 | | | 4-5% |
| 2,1 | 1,4 | | | 5-6% |
| 2,1 | 1,1 | | | 4-5% |
| 1,4 | 1,1 | | | 3-4% |
| 2,2 | | | | 4-5% |
| 2,1 | | | | 4-5% |
| 1,4 | | | | 2-3% |
| 1,1 | | | | 2-3% |